# Qürur və məğrurluq təcəssümü

(Əvvəli 6-cı səhifədə).

də İsmət Qayıbovla birgə 22 nəfərin olduğu vertolyotun qara tüstüləri, alovları... Atası Ruslan Şirinovun ailəsini erməni fitnə və qətllərindən qoruması, anası Fiqurə xanımın qaçqınlıq həyatında övladlarını öz sevgi və qayğısı ilə "isidərək" bu həyatın tezliklə sona yetərək öz ocaqlarına, yurdlarına dönmək söhbətləri... eləcə nağıla döndü... 30 illik bir nağıla... Bu naqılı reallaşdıran isə ailənin ilk övladı Zaur oldu...

**Günəş çox uzaqdır, dəniz çox dərin...**

Həyat hekayə kimidir, oxuması asan, yaşaması çox zor. Ancaq nə qədər çətin olsa belə insan həyatı yaşamağa məhkum. Nəfəs veribsə Tanrım bu həyat yaşanmalı. Zaur Şirinov da bütün çətinlikləri sırasıyla adlayaraq yaşadı... Zaur Şirinov 1980-ci ildə, yanvarın 5-də Xocavənd rayonunun Qaradağlı kəndində doğulub. 1986-cı ildə həmin kənddə 1-ci sinfə qəbul olunmuşdu .

1991-ci il noyabrın 20-də SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının "Mİ-8"V-72 vertolyotunun vurulması, 22 nəfərin (onların arasında tanınmış dövlət xadimləri də olmuşdur) faciəli ölümü ilə tamamlanan o terror hadisəsinin canlı şahidi olmuşdu Zaur. Torpaqlarının müdafiəçisi olan atası ailəsini başqa yerə müvəqqəti göndərərkən Zaur qonşu kəndə qaçıb qara tüstülər içində yanan və partlayaraq alovlanan vertolyotun içində yanan insanları düşünmüşdü... Körpə qəlbində onların faciəsini yaşamışdı... Həmin hadisənin səhəri o da ana və balaca bacı və qardaşlarının yanına göndərilmiş, məcburi köçkün həyatına başlamışdı.

O illərin canlı şahidləri qaçqınlıq həyatının ağrı-acısını daha yaxşı dərk edir. Öz ocağının istisini itirən insanların həyatının hər günü bir acı tarix idi... Onlar üçün "günəş çox uzaq, dəniz çox dərin idi"... Körpələr ürək arzularını əzizləri - valideynləri kimi öz iç dünyasında boğardılar, çətinliklər dolu həyatla mücadilə edərək yaşayardılar. O dövrün körpələrinin psixologiyasına eşitdikləri, gördükləri və yaşadıqları çox ağır təsir etmişdi. Köçkün həyatı yaşayanların əksəriyyəti arzularını, istəklərini, düşüncələrini qəlbində, ağlında "boğaraq" yaşadığı həyatla barışırdılar.

Zaur orta təhsilini başa vurmaq üçün 4 məkanda,4 məktəbdə oxumuşdu .Bacısı və qardaşları- Hətəmxanla Nurlan bəlkə də o xatirələri Zaur qədər daha reallığı ilə xatırlaya bilməzlər. Zaur ailənin ilk övladı olduğu üçün yaşanılan hər gün gözləri önündə...

Atasının vətənpərvər biri kimi övladlarına öz elini, obasını daha dərindən sevdirməsi də Zaurun ürəyində hərbiçi olmaq arzusunu oyatmışdı. Aldığımız məlumata görə o illərdə torpaqlarımızın müdafiəsi zamanı Zaurun babası, əmisi, atasının əmisi və əmisi oğlu şəhid olmuşlar. O nəslin qaziləri də vardır. Əmisi oğlu əsir düşmüş, sonralar erməni əsiri ilə dəyişdirilmişdir. Zaurun atası Ruslan Şirinov da müharibə veteranıdır.



**Əldən yapışmadım əlim isinə...**

Yurd həsrəti onu hərbçi olmaq arzusuyla yetkinləşdirirdi. 1997-ci ildə orta təhsilini başa vurduqdan sonra 1998-ci ildə həqiqi hərbi xidmətə çağrılmışdı. Həmin ildə yanvarın 5-də başladı onun hərbçi həyatı... Əsgəri xidmətini başa vurduqdan sonra məsuliyyət, səbr, dözüm, igidlik tələb edən, illərdir ürəyində saxladığı bu peşə arzusuna çatmaq üçün əsgəri xidmət illəri bir yaşıl işıq oldu ona. Vətən torpaqlarının, xüsusilə vətənin başladığı yerin - ana ocağının düşmən əsirliyində olması, gördüyü və yaşadığı real həyat "lövhələri" onu yaşından tez böyütmüşdü... düşüncələrini də, görünüşünü də... Hərbçi olmaq, Vətəninin faşizm-ermənizm çaynağında olan hissələrini azad etmək, igid şəhidlərimizin ruhlarının narahatlığına son qoymaq, qazilərimizin itirilmiş saqlamlığının öcünü almaq, yağmalanmış məkanları, xarabazara çevrilmiş evləri, isti ocaqları yenidən qurmaq, qaşqın və köçkün kəlmələrini yaddaşlardan belə təmizləmək, həyatı həyat kimi yaşamaq, məğrurluq və qürurluluq hisslərini insanların baxışlarında belə təzələmək onun reallaşdırmaq istədiyi arzuları idi. Xalq şairimiz Bəxtiyar Vahabzadə təbiri ilə desək:

***Düşmənəm yaltaqlanıb təpəyə dağ deyənə ,***<br>
***"Bu dünyada birtəhər qoy yaşayaq!" - deyənə!***<br>
***Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,***<br>
***Həyatı həyat kimi yaşamaq istəyirəm!***

**Zaur dedi də, yaşadı da...**

İşlədiyi illər ərzində qarşılaşdığı toqquşmalarda, erməni terrorçularının törətdiyi təxribatlarda həmişə mərdliklə döyüşdü...

2016-cı ilin Aprel döyüşlərində Zaur igidliklə döyüşmüşdü. O, torpaqlarımızın azadlığı üçün "ölümün gözünə" dik baxan oğullardan idi. Şair Məmməd Araz dili ilə desək:

***Dağdan yıxılanda dağdan yapışdım,***<br>
***Enmədim kiçiyin kiçik dizinə.***<br>
***Əldən yapışanda haqdan yapışdım,***<br>
***Əldən yapışmadım əlim isinə...***

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində arzuların gerçəkləşməsi üçün zamanın yetişdiyini hiss edən Zaur döyüşlərə qatıldı...

Zamanın nəfəsi damarlarında idi Zaurun. Döyüşlərin tüğyan etdiyi hər bölgədə olmaq, 30 illik acıların öcünü almaq, əsir torpaqları azad etmək, qəlbində tüğyan edən acı xatirələri xoş, sevincli xatirələrə "bələmək" onun üreyinin döyüntüləri idi...

44 günlük müharibədə Lələtəpədə 5 gün döyüşdü... Füzuli, Cəbrayıl, Hadrud, Zəngilan, Qubadlı, Laçın uğrunda gedən döyüşlərdə düşməndən öcünü aldı. Noyabrın 1-də ağır yaralandı; elə yaralandı ki, bu gün də o ağrıları yaşayır. Ancaq müharibənin bəxş etdiyi qəlpə acıları onun üçün 30 illik məğlub ölkə vətəndaşı adının acısından daha yüngüldür!.. Ayağında ömürlük ona "yoldaş" olan, "canlı xatirəyə" çevrilən 33 qəlpə onun mənəvi ağrılarını azaltdı. Zəfər, yeni yazılan tarix onun daxili acılarına son qoydu, cismən ağrıları ömrünə yoldaş olsa belə... Xəstəxana çarpayılarında, cərrahi əməliyyat stollarında oldu, can ağrıları onu yaşından tez yaşlandırsa belə məğrurluq ona böyük məlhəm oldu... Adına uşaq vaxtı əlavə olunan qaçqın, məcburi köçkün kəlmələri ən şərəfli bir adla - Qazi adıyla kölgədə qaldı...

Bu gün dövlətimizin qayğı və diqqəti əhatəsində olan igid döyüşçü Zaur Şirinovun ən ümdə arzusu doğulduğu obada, valideynləri, övladları - əzizləri ilə birgə isti ocağının başına yığılmaq... uşaqlığının acı xatirələrini xoş sonluqlu nağıl kimi danışmaq...

Bax, o zaman hər gün qəbul etdiyi ağrıkəsici dərmanlar, iynələr onun üçün daha əhəmiyyətsiz, qiymətsiz olacaq... Mənəvi sağlamlığa daha üstünlük verən Zaur Şirinov bu gün insanlığa örnək biridir. Qürur və məğrurluğu , hər kəsin sevgi və hörmətini isə öz xarakteri, özünəməxsus insanlıq yaşamı ilə qazanıb. Yeni tarix yazan, Vətənin vətənləşən oğlu Zaur Şirinov dövlətimiz tərəfindən medallarla təltif olunub, döyüş şücaətinə görə! Onun ən böyük təltifi isə əzizlərinin, xüsusilə də övladları Aygün və Ömərin qürurlu baxışları, özünün isə qəlbən məğrurluğudur!

**Bibixanım İSAYEVA.**

# Tədris ilinin yekunları haqqında

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.

Dövlət başçısının müntəzəm dəstəyi və qayğısının nəticəsi olaraq, yeni məktəblərin inşası, azkomplektli məktəblər üçün modul tipli binaların quraşdırılması, ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi-texniki və təlim bazasının yaxşılaşdırılması sahəsində aparılan işlər, təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə, təhsilin yeni məzmun - forma almasına müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir

Bu ilin yekununda IX siniflər üzrə buraxılış imtahanlarında orta balı ən yüksək olan məktəblər (Ana dili, riyaziyyat, xarici dil üzrə) Məmmədağalı kənd orta məktəbi, Vəndam qəsəbə 2 saylı orta məktəb, Seyidqışlaq kənd orta məktəbi, Daşlıca kənd orta məktəbi olmuşdur.

XI siniflər üzrə isə hər üç fənn üzrə Cığatelli kənd, Vəndam qəsəbə 1 saylı, Qəbələ şəhər 2 saylı, Daşlıca və Bunud kənd orta məktəbləri buraxılış imtahanlarında orta balı ən yüksək olan məktəblər kimi fərqlənmişlər.

Şagirdlərin fundamental bilik almalarında, konkret müəyyən sahələr üzrə istiqamətlənməsində təmayül siniflərin rolu olduqca əhəmiyyətlidir. 2022-2023-cü tədris ili üzrə rayonun ümumtəhsil məktəblərinin X siniflər üzrə 7 məktəbdən 9 təmayül sinifi təşkil olunmuş və bu siniflərə 170 şagird, XI sinif üzrə isə 9 məktəbdən 11 təmayül sinifdə təmayül təşkil olunmuş və bu siniflərə 205 şagird cəlb olunmuşdur. Daimi olaraq təmayül siniflərdə tədris prosesinin təşkilinin monitorinqləri aparılır, qarşıya çıxan hər hansı nöqsanın aradan qaldırılması anındaca təmin edilir. Təmayül siniflərə MİQ-dən və Dioqnostik qiymətləndirmədən yüksək bal toplayan peşəkarlığı və səriştəliliyi yüksək olan müəllimlər cəlb edilmişdir.

Rayonumuzn ümumtəhsil məktəblərində tarixi günlər, hadisələrlə bağlı tədbirlər, yarışlar keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə Heydər Əliyev ili çərçivəsində bütün ümumitəhsil məktəblərində "Ulu öndər - sənin adınla" mövzusunda silsilə tədbirlər; ədəbi-bədii kompozisiyalar, seminarlar, konfranslar, idman yarışları, ekskursiyalar ,gəzintilər təşkil edilmiş və hal-hazırda bu tip tədbirlərin keçirilməsi davam etdirilir.

Məktəblərin yeni dərs ilinə hazırlanmasında və tədrisin keyfiyyətinin yüksəldilməsində şagirdlərin dərsliklərlə təmin olunması əsas vəzifələrdən biridir. Bu məqsədlə iyul, avqust ayında Şəki - Zaqatala Regional Təhsil İdarəsi tərəfindən ümumtəhsil müəssisələrinə 70898 nüsxə dərslik və müəllimlər üçün metodik vəsait verilmiş və həmin dərsliklərin məktəblərə çatdırılması təmin edilmişdir. Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmir işləri xüsusi diqqət mərkəzindədir. 2021-ci ildə rayonun Nic qəsəbə 1 və Nic qəsəbə 4 saylı tam orta məktəbləri üçün uyğun olaraq 225 və 320 yerlik, Bum qəsəbə tam orta məktəbi üçün 624 yerlik məktəb binalarının tiintisinə başlanılmış, Zarağan kənd 1 saylı tam orta məktəbinin (528 yerlik) yeni binasının tikintisi başa çatdırılmış və istidadəyə verilmişdir.

Məktəblərin ixtisaslı pedaqoji kadrlarla tam təmin edilməsi məqsədilə Şəki Zaqatala Regional İdarəsinə 15 ixtisas üzrə 171 müəllimə ehtiyac olduğu barədə müraciət edilib. Çıxarılmış vakant iş yerlərindən 31-i yerəyişmə yolu ilə , 13-ü müddətli müqavilə ilə, 91 yer isə müsabiqə you ilə tutulmuşdur. Qalan 26 yer (əsasən tədris dili rus dili olan məktəblər) isə tutulmamışdır

Təhsil sektoru, eləcə də bütün təhsil müəssisələri növbəti ders ilində təhsilin keyfiyyətinin yüksəldilməsi, təlim resurslarından, müasir təlim metodlarından və texnologiyalarından daha səmərəli istifadə etmək istiqamətində işləri bu gündən sonra da davam etdirəcəklər.

**Arifə BAYRAMOVA,**<br>
**Şəki- Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ rayonu üzrə təhsil sektorunun müdiri.**

# "Əziz Şuşa" Beynəlxalq Velosiped Turniri

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının (AVF) birgə təşkilatçılığı ilə keçirilən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" beynəlxalq velosiped turnirinin ikinci mərhələsinə Qəbələ şəhərində start verilmiş, idmançılar Qəbələ - Oğuz - Şəki - yarışın lideri, Niderlandın "Universe Cycling Team" klubunun üzvü Luk Şurmans ən yaxşı sprinteri, Qazaxıstanın "Vino Sko Team" klubunun üzvü İlkhan Dostiyev ən yaxşı dağ velosipedçisi, Türkiyənin "Sakarya BB Pro Team" klubunun üzvü Aleksandr Bereznyak isə ən yaxşı gənc idmançısı olub. Yarışdan sonra mükafatlandırma mərasimi keçirilib. İlk 3 yerin




Oğuz - Qəbələ marşrutu üzrə 176,2 km məsafə qət etmişlər. Elit yaş kateqoriyasında kişilərin mübarizə apardığı veloturun ikinci mərhələsinin qalibi Niderlandın "Universe Cycling Team" klubunun üzvü Luk Şurmans (04:06:52) olub. Bolqarıstan milli komandasının üzvü Nikolay Genov (04:06:52) ikinci, Çinin "China Glory Continental" klubunun velosipedçisi Julien Trarieux (04:06:52) üçüncü yerə layiq görülüblər. Bolqarıstan milli velosipedçisi Martin Papanov iki mərhələnin cəminə görə qalibləri medallar, lider velosipedçi sarı, ən yaxşı sprinter yaşıl, ən yaxşı dağ velosipedçisi qırmızı, ən yaxşı gənc idmançı isə ağ köynəklə təltif olunublar.

9 iyun 2023-cü il tarixdə "Əziz Şuşa" Beynəlxalq Velosiped Turnirinin üçüncü mərhələsinə Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start verilib. Bu mərhələdə Velosipedçilər Qəbələ-Ağdaş-Mingəçevir-Gəncə marşrutu üzrə 170 kilometr məsafə qət edərək finiş xəttini Gəncə şəhərində başa vurmuşlar.